## "F.N. Audit Servis" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİNİN DİREKTORU CƏNAB FUAD ƏLİYEVƏ

### Hörmətli Fuad müəllim!

*Azərbaycan Respublikası Auditorlar Palatasının rəhbərliyi, kollektivi və üzvləri adından "F.N. Audit Servis" məhdud məsuliyyətli cəmiyyətinin fəaliyyətə başlamasının* ***20*** *illik yubileyi münasibətilə Sizi və rəhbərlik etdiyiniz kollektivi səmimi qəlbdən təbrik edirəm.*

*"F.N. Audit Servis" MMC 20 il bundan əvvəl 2003-cü ilin yanvar ayından etibarən ölkədə peşəkar xidmətlər göstərən şirkət kimi böyük uğurlar əldə etmişdir. Bu gün ölkəmizdə sayılan auditor xidməti şirkətlərindən biri olan "F.N. Audit Servis" MMC Azərbaycanda şirkətlərə, eləcə də dövlət müəssisələrinə iqtisadi məsələlərlə bağlı beynəlxalq standartlara uyğun peşəkar audit - məsləhət xidmətləri göstərir.*

*Ümummilli liderimizin uzaqgörən müdrik siyasətinə əsaslanaraq, möhtərəm Prezidentimiz İlham Əliyev cənabları tərəfindən cəmiyyət həyatının bütün sahələrində, o cümlədən iqtisadiyyatda aparılan əzəmətli quruculuq işləri hər gün yeniləşən, sürətlə inkişaf edən Azərbaycana xarici şirkətlərin də marağını artırmışdır. "F.N. Audit Servis" məhdud məsuliyyətli cəmiyyəti daim öz müştərilərinin yanında olmuş, onları hər zaman dəstəkləmiş və bu səbəbdən Azərbaycanda fəaliyyətinin miqyasını kifayət qədər genişləndirmişdir.*

*Xüsusən qeyd etməliyik ki, 20 il ərzində "F.N. Audit Servis" MMC nümunəvi fəaliyyət prinsipi ilə ölkədə audit sahəsində keçirilmiş tədbirlərdə iştirakı ilə yanaşı beynəlxalq səviyyəli konfranslarda, simpoziumlarda, forumlarda, seminarlarda və digər tədbirlərdə Auditorlar Palatasının üzvü kimi dəstək göstərmiş və həmin tədbirlərdə fəal iştirakınız həmişə rəğbətlə qarşılanmışdır.*

**Hörmətli Fuad müəllim!**

*Sizin ötən dövr ərzində audit qanunvericiliyinin təkmilləşdirilməsi, normativ aktların, metodik vəsaitlərin, proqramların və digər sənədlərin hazırlanması və tətbiqində əməyiniz yüksək qiymətləndirilərək, dəfələrlə təşəkkür elan edilmiş, "Fəxri Fərman"lara və 2011-ci ildə Auditorlar Palatasının yüksək mükafatı olan "Fəxri Auditor" döş nişanına layiq görülmüşsünüz. Xüsus ilə əlamətdar və qürurvericidir ki, Azərbaycan Respublikası Auditorlar Palatasının 20 illiyi münasibətilə auditor fəaliyyətinin inkişafındakı xidmətlərinizə görə isə Azərbaycan Respublikası Prezidentinin 2016-cı 4 aprel tarixli Sərəncamı ilə "Tərəqqi" medalı ilə təltif edilmisiniz.*

*Biz ölkəmizin iqtisadi inkişafı naminə fəaliyyətinizin gələcəkdə daha da genişləndirilməsi istiqamətində səylərinizin davam etdirilməsinə ümid bəsləyirik.*

*"F.N. Audit Servis" məhdud məsuliyyətli cəmiyyətinin fəaliyyətə başlamasının **20** illik yubileyi münasibətilə Sizi və kollektivinizi bir daha təbrik edir və şərəfli işinizdə Sizə uğurlar arzulayıram.*

**Dərin hörmətlə,**

Azərbaycan Respublikasının Auditorlar Palatası
Chamber of Auditors of Azerbaijan Republic

**Vahid NOVRUZOV**
**Azərbaycan Respublikası**
**Auditorlar Palatasının sədri,**
**iqtisad elmləri doktoru, professor**

03.01.2023-cü il